VAQİF NƏBİYEV
*Bakı Dövlət Universiteti*

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN YETİRDİYİ GÖRKƏMLİ ALİM VƏ İCTİMAİ XADİM

Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan Bakı Dövlət Universiteti respublikamızda elmin və təhsilin təşəkkülündə və inkişafında müstəsna rol oynamışdır.

Milli və ictimai tərəqqidə elmin, təhsilin rolunu düzgün qiymətləndirən Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qısamüddətli fəaliyyəti dövrnündə həyata keçirdiyi ən mühüm tədbirlərdən biri 1919-cu ildə Azərbaycanda ilk ali təhsil müəssisəsi olan Bakı Dövlət Universitetinin yaradılması oldu.

Universitet Azərbaycanın həyatının bütün sahələrinə güclü təsir edərək xalqımızın qarşısında ölçüyəgəlməz xidmətlər göstərmiş, ali təhsilin inkişafında və xüsusilə milli kadrların hazırlanmasında böyük rol oynamışdır. İndi ölkəmizdə onlarla ali məktəblərin yaradılması və ümumiyyətlə Azərbaycan Respublikasının böyük ali təhsil potensialına malik olması məhz Bakı Dövlət Universitetinin fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Azərbaycan dövlətinin xilaskarı və qurucusu, ümummilli liderimiz Heydər Əliyev özünün də məzunu olduğu bu qocaman elm ocağının fəaliyyətini həmişə yüksək qiymətləndirmiş və çıxışlarının birində demişdir: «Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır»[1].

Doğrudan da, Universitetin keçdiyi tarixi inkişaf yoluna nəzər salarkən belə qənaətə gəlmək olar ki, Azərbaycanın bu gününü, onun dünya şöhrətli elmini, mədəniyyətini, alimlərini, iqtisadiyyatını, bütövlükdə Azərbaycan cəmiyyətini bu elm məbədgahından ayrı təsəvvür etmək qeyri-mümkündür. Belə ki, Bakı Dövlət Universiteti respublikamıza xalqımızın fəxr etdiyi yüzlərlə böyük alimlər, yaradıcı ziyalılar, ictimai və dövlət xadimləri bəxş etmişdir.

Belə şəxsiyyətlərdən biri də ömrünün 40 ildən çoxunu Bakı Dövlət Universitetinə həsr etmiş, nəinki universitetin, eləcə də respublikamızın elmi və ictimai-siyasi həyatında mühüm xidmətləri olan tarix elmləri doktoru, professor Səfyar Bəylər oğlu Musayevdir. Səfyar Musayev 1935-ci il iyulun 17-də Göyçə mahalının Basarkeçər rayonunun Nərimanlı kəndində anadan olmuşdur.1953-cü ildə Böyük Məzrə kənd orta məktəbini qızıl medalla bitirdikdən sonra öz xalqının tarixini dərindən öyrənmək istəyi gənc Səfyarı Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə gətirib çıxarmışdır. 1953-cü ildən unmversitetdə təhsil aldığı illər onun həyat və yaradıcılığına böyük təsir göstərmişdir. Bunu görkəmli alim və ictimai xadim belə vurğulamışdır: «Bu illər mənim həyatımda mühüm rol oynadı. O zaman tarix fakültəsində M. İrəvanlı, Ə.Sumbatzadə, İ.Hüseynov, Ə.İbrahimov, Ə. Şahmalıyev kimi görkəmli alimlər isləyirdilər. Onların Azərbaycan xalqı qarşısında xidmətləri böyükdür. Mən həyatda bir insan kimi formalaşmamda, tarix elmini dərindən öyrənməyimdə bu böyük şəxsiyyətlərin xildmətlərini heç zaman yaddan çıxara bilmərəm.»[2].

1958-ci ildə ADU-nun tarix fakültəsini fərqlənmə diplomu ilə bitirən S.Musayev ilk əmək fəaliyyətinə Basarkeçər rayonunun Çaxırlı kənd məktəbində tarix müəllimi kimi başlayır, sonradan o bir müddət «Sovet Ermənisitanı» qəzetinin Basarkeçər, Martuni, Kamo və Krasnoselski rayonları üzrə xüsusi müxbiri işləmişdir.

Lakin elmə olan tükənməz həvəsi nəticəsində 1962-ci ildə ADU-nun aspiranturasına daxil olur, 1965-ci ildə vaxtından əvvəl «Azərbaycanda fəhlə-kəndli müfəttişliyinin

fəaliyyəti (1920-1923-cü illər)» mövzusvunda namizədlik dissertasiyası müdafiə edir aə tarix elmləri namizədi, alimlik dərəcəsi alır. Elə həmin il universitetin Sov.İKP tarixi kafedrasında müəllim kimi saxlanılır. Yorulmaq bilmədən səmərəli elmi axtarışlar aparan S.Musayev 1980-ci ildə doktorluq dissertasiyası müdafiə etmiş və 1981-ci ildə ona professor elmi dərəcəsi verilmişdir. Tarixçi alim S.Musayev 1986-cı ildən ömrünün sonuna qədər respublikada dayaq kafedrası olan BDU-nun humanitar fakültələr üzrə Siyasi tarix kafedrasının müdiri işləmişdir. O çox gərgin, səmərəli və məhsuldar işləyən bir alim kimi 400-ə yaxın fundamental elmi siyasi məqalənin, 6 iri həcmli monoqrafiyanın müəllifidir.

Bundan başqa S.Musayev onlarca aspirantın elmi rəhbəri, 5 nəfərin isə doktorluq dissertasiyasının opponenti olmuşdur. Rəhbərlik etdiyi kafedra əməkdaşlarının alim kimi püxtələşməsi və inkişaf etməsinə daim qayğı göstərmişdir. Professor S.Musayev həmçinin 1991-ci ildə nəşr olunan Azərbaycanda ilk mükəmməl dərslik olan Siyasi tarix kitabın birinci cildinin müəlliflər kollektivinin rəhbəri olmuş, 1998-ci ildə isə onun elmi redaktorluğu ilə dərsliyin ikinci cildi çapdan çıxmışdır. 1995-ci ildə nəşr olunmuş «Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası» adlı monoqrafiyanın müəlliflərindən biri də S.Musayevdir. O görkəmli alim olmaqla bərabər həm də çox cəsarətli, mərd, qorxmaz və cəfakeş bir insan idi. Belə ki, XX əsrin 80-ci illərinin axırı, 90-cı illərin əvvllərində Azərbaycan milli ideologiyasına meydan açmaq pərdəsi altında Siyasi tarix fənni də daxil olmaqla bir sıra ictimai elmlərin o cümlədən fəlsəfə, siyasi iqtisad, politologiya və s. tədrisinin guya lazım olmadığını iddia edərək, bu fənlərin iədrisi sıxışdırılmışdı. Kafedralar isə bağlanmaq təhlükəsi qarşısında qalmışdı. Məhz bu dövrdə görkəmli alim S.Musayev sinəsini qabağa verib belə avanturist fikirlərin zərərli olduğunu söyləmiş və həmin fənlərin tədrisinin yetişməkdə olan gənc nəslin təlim-tərbiyəsində, dünyagörüşünün formalaşmasında əvəzsiz rol oynadıqlarını sübuta yetirmiş, nəticədə həmin qüvvələr geri çəkilmiş və fənnlərin tədrisi bərpa edilmişdi.

Səfiyar müəllim isitedadlı alim, bacarıqlı təşkilatçı olmaqla həm də peşəkar pedaqoq idi. O elmi-pedaqoji fəaliyyəti dövründə özünə qarşı çox tələbkar olmaqla yanaşı tələbələrinə qarşı həssas, obyektiv və qayğıkeş münasibət bəsləmiş, ləyaqətini uca tutan müəllim olduğunu sübut etmişdir. Minlərlə tələbənin təsəvvüründə Səfiyar müəllimin qayğükeş, peşəkar pedaqoq kimi qoyduğu izlər xoş xatirələrə çevrilmişdir.

Professor S.Musayev Azərbaycan alimlərinin beynəlxalq aləmdə layiqli təmsilçisi olmuşdur. O keçmiş SSRİ-nin müxtəlif şəhərlərində, müstəqillik dövründə isə Türkiyə, İran, Çin, Çexiya, Kipr və başqa ölkələrdə keçirilmiş simpoziumlarda, konfranslarda türkdilli xalqları narahat edən, düşündürən məsələlərlə bağlı məruzələrlə çıxış etmişdir.[3].

Görkəmli alim S.Musayev respublikanın ictimai-siyasi həyatında da yaxından iştirak edirdi. Xüsusilə o peşəkar bir tarixçi kimi Azərbaycanın ziddiyyətlərlə dolu inkişaf mərhələlərini təhlil edərkən N.Nərimanov şəxsiyyətinin danılmaz rolunu yuksək qiymətləndirməklə yanaşı 1960-70-ci illrədən başlayaraq Azərbaycanın iqtisadi, ictimai-siyasi və elmi mədəni inkişafında əvəzsiz rolu olan Heydər Əliyev şəxsiyyətinə dərin ehtiram bəsləyirdi.

Onu da qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyev N.Nərimnovun fəaliyyətini həmişə uca tutmuş və çıxışlarının birində demişdir: «Nəriman Nərimanov öz dövrünün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir»[4].

1987-ci ildə ermənipərəst Qorbaçovun xəyanətkarlığı nəticəsində təqaüdə çıxarılmaq bəhanəsi ilə Heydər Əliyevin mərkəzi aparatdan uzaqlaşdırılması Səfyar müəllimi çox sarsıtmışdı. Mərdliyi, qorxmazlığı və sədaqəti ilə seçilən Səfyar Musayev heç kəs-

dən çəkinmədən Sov.İKP MK Siyasi Bürosunun üzvlərinin kafedrada asılmış şəkilləri sırasından Heydər Əliyevin şəklini 1990-cı ilin yanvarınadək çıxarmağa qoymamışdı. Çünki 1990-cı ilin 20 yanvar hadisəsindən sonra mərkəzə etiraz əlaməti olaraq Siyasi Büro üzvlərinin şəkilləri kafedradan çıxarılmışdı.

1990-cı illərin əvvəllərində Azərbaycanda vətəndaş müharibəsi və qarşıdurma şəraitində müstəqilliyimizin itirilməsi təhlükəsi yarandığı dövrdə ölkəni dərin iqtisadi, siyasi, mənəvi və hərbi böhrandan çıxarmaq üçün böyük dövlətçilik təcrübəsinə malik olan H.Əliyevin respublikaya yenidən rəhbərliyə gətirilməsinə ehtiyac duyulduğu bir vaxtda S.Musayev bu həqiqətləri ciddi arqumentlərlə əsaslandıraraq ictimaiyyətin diqqətinə çatdırmağa xüsusi səy göstərmişdir. H.Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması ilə bağlı Azərbaycanı nə kimi faciələr gözlədiyini əvvəlcədən duyan S.Musayevin acı ehtimalları həqiqətə çevrildi. Belə ki, Ermənistan ərazisindən-öz əzəli torpaqlarından yüz minlərlə azərbaycanlı mütəşəkkil qaydada qovuldu. Dağlıq Qarabağ azərbaycanlılardan təmizləndi, 7 rayon talan edildi, bir milyona yaxın əhali teleyin ixtiyarına buraxıldı. Respublikamız ağır sosial iqtisadi, ictimai-siyasi, elmi-mədəni və hərbi böhrana yuvarlandı.

Bütün bu proseslərdə Səfyar müəllim seyirçi mövqe tutmadı və daim ictimai siyasi çəkişmələrdə respublikamız naminə haqq-ədalət uğrunda ciddi mübarizə apardı. Tarixi inkişafın aşkar və gizli daşıyıcılarından kifayət qədər xəbərdar olan S.Musayev ölkəmizin uçurumdan xilas olması üçün yeganə mümkün olan yolu düzgün idarəçilikdə, şəxsiyyətin həlledici rolunda axtardı. Azərbaycanın qurtuluşunu dünya şöhrətli Heydər Əliyevin yenidən respublika rəhbərliyinə gətirilməsində döğru və bunun reallaşması üçün gərgin mübarizəyə başladı. Məlum olduğu kimi həmin dövrdə Heydər Əliyevin əleyhidarları və düşmənləri onun hakimiyyətə gəlməsinə hər vəchlə mane olur, ona böhtanlar ataraq ləkələməyə çalışır, az qala adının işlədilməsi yasaq edilmişdi. Məhz belə çətin bir vaxtda professor S.Musayev heç kimdən və heç nədən çəkinmədən Heydər Əliyev haqqında təbliğatını davam etdirirdi. Bu baxımdan o öz fikrini belə ifadə etmişdi: «Məşhur siyasətçi Heydər Əliyev xalqımızın döyünən ürəyi və düşünən beynidir, onu ilahi bizim başıbəlalı xalqımıza bəxş edibdir. Onu hakimiyyətə gətirmək lazımdır»[5].

S.Musayev 1992-ci il oktyabrın 16-da «Səs» qəzetində dərc etdirdiyi «Mən niyə Əliyevçiyəm» adlı məqaləsində ulu öndər H.Əliyevin tarixi xidmətlərini geniş faktlar əsasında qeyd etməklə yanaşı, belə bir nəticəyə gəlir ki, Azərbaycanı düşmüş olduğu bu bəladan yalnız və yalnız ümummilli lider H.Əliyev xilas edə bilər. Görkəmli alim həmin məqaləsində yazırdı: 1982-ci ilin noyabrı idi. Mən o zaman bir qrup yoldaşımla Moskva Dövlət Universitetinin Təkmilləşdirmə İnstitutunda ixtisasartırma kursunda oxuyurdum. Hövbəti məşğələdən sonra yataqxanaya qayıdıb dincəlmək istədim. Birdən otağın qapısı astaca döyüldü, açdım. 10-15 nəfərdən ibarət müxtəlif millətlərin nümayəndələri içəri daxil oldular. Onların hamısı H.Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və MK-nın Siyasi Bürosunun üzvü seçilməsi münasibətilə məni təbrik etdilər. O zaman mən qəti surətdə əmin oldum ki, Azərbaycan xalqı öz yetişdirməsi olan H.Əliyevlə fəxr edə bilər. H.Əliyev sovet imperiyasının tərkibində ilk azərbaycanlı idi ki, bu pilləyə yüksələ bilmişdi»[6].

Həmin illərdə belə bir məqaləni dərc etdirmək çox qorxulu və çətin idi. Dərəbəyliyin hökm sürdüyü o dövrdə ulu öndər H.Əliyevin adının belə çəkilməsinə imkan verməyən xalqa yad ünsürlər bütün güvvələrini səfərbər edərək onun Azərbaycana yenidən hakimiyyətə gəlməsininn qarşısını almağa çalışırdılar.

Ancaq bütün çətinliklərə baxmayaraq S.Musayev belə bir zamanda bir qrup (91 nəfər) görkəmli alim, təhsil, mədəniyyət və incəsənət xadimləri, idarə və təşkilat rəhbər-

ləri ilə birgə ölkəmizin yüz minlərlə sağlam əqidəli insanlarının adından Naxçıvanda ekstremal şəraitdə quruculuq işlərinə başlamış Heydər Əliyevə müraciət edərək onun respublikaya rəhbərliyə qayıtmasını xahiş etmiş və ətrafına dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürürlu insanları toplayıb, ölkəmizi işıqlı gələcəyə aparacağına dərin inamlarını bildirmişdilər. Bu müraciətdən sonra S.Musayevin rəhbərliyi ilə Azərbaycanda ilk dəfə məhz BDU-nun humanitar fakültələr üzrə Siyasi tarix kafedrasında «Heydər Əliyevin müdafiəsi mərkəzi» yaradıldı[7].

Azərbaycanda dövlət idarəçiliyi strukturunda hərc-mərcliyin tuğyan etdiyi müstəqiliyimizinn ilk illərində S.Musayev yüksək intellektə malik olan bir qrup həmfikirləri ilə partiya yaratmaq istiqamətində fəaliyyətə başladı.Gərgin, prinsipial və məqsədyönlü işlər nəticəsində Heydər Əliyevin sədrliyi ilə «Yeni Azərbaycan Partiyası» yarandı və fəal siyasi mübarizəyə qoşuldu. Bundan dərhal sonra S.Musayevin rəhbərliyi ilə Azərbaycanda birinci olaraq Bakı Dövlət Universitetinin humanitar fakültələr üzrə Siyasi tarix kafedrasında 17 nəfərin iştirakı ilə YAP-ın ilk təşkilatı təsis olundu[8].

Qeyd etmək lazımdır ki, onun Heydər Əliyevlə şəxsi tanışlığı 1992-ci ilin noyabrında Naxçıvanda YAP-ın təsis konfransından əvvəl baş vermişdi. Belə ki, Heydər Əliyev konfransdan əvvəl nümayəndələrin hamısını qəbul edrəkən S.Musayev də orada olmuşdur.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı prof. S.Musayevi daha da ruhlandırmış, siyasi fəaliyyətində böyük dönüş yaratmışdı. O, 1993-cü il 21 oktyabr tarixində 91-lərin Heydər Əliyevə müraciətinin bir illiyi münasibətilə «Azərbaycan» qəzetində dərc etdirdiyi «Azərbaycanımızı düşünürük» adlı məqaləsində yazırdı: «1982-ci ilin noyabr ayında H.Əliyev Azərbaycandan getdikdən sonra respublikanı səriştəsiz adamlar idarə etməyə başladılar. İdarəetmə qabiliyyəti olmayan adamlar respublikanı çox ağır vəziyyətə saldılar. Müstəqil Azərbaycan dövlətinin yaşaması təhlükə qarşısında idi. Azərbaycan xalqının «olum, ya ölüm» məsəlsi həll olunurdu. Xalqı bu ağır, mürəkkəb və çətin vəziyyətdən qurtarmağın yeganə yolunu onun respublika rəhbərliyinə qayıtmasında gördük. Mən buna tam əminəm, heç bir şübhəm yoxdur ki, Heydər Əliyev Azərbaycae xalqını bu bəladan qurtaracaqdır. H.Əliyevdə olan tükənməz enerji, böyük təşkilatçılıq qabiliyyəti, xalqla möhkəm əlaqəsi, siyasətdə və ölkəni idarəetmə işində qazandığı böyük təcrübə Azərbaycan xalqının düşdüyü bu bəladan xilas olmağına kömək edəcəkdir. Hakimiyyətə gəldiyi üç-dörd ay ərzində o, respublikanı vətəndaş müharibəsindən xilas etdi, müharibəni müvəqqəti olsa da dayandırmağa nail oldu, müstəqil Azərbaycan dövlətinin parçalanmasının qarşısını aldı. Atatürkçülük Türkiyə Respublikasında qələbə çaldığı kimi, Əliyevçilik də müstəqil Azərbaycan Respublikasında qələbə çalacaqdır. Atatürkçülük vaxtilə Türkiyə üçün nicat və qurtuluş yolu olduğu kimi Əliyevçilik də bu gün Azərbaycan üçün əsl qurtuluş və nicat yoludur»[9].

Görkəmli alimin fikirləri özünü doğrultdu. Belə ki, Heydər Əliyev 1993-cü ilin oktyabrında ümumxalq sisvermsi yolu ilə Azərbaycan Respublikasının Prezidenti seçildikdən dərhal sonra ölkə qarşısında duran problemlərin həllinə cəsarətlə girişdi. İlk növbədə gərginlik yaşanan Gəncədə hadisələr öz axarına düşdü. Qondarma «Talış Muğan Respublikası» Heydər Əliyevin xalqa müraciətindən sonra bölgə zəfhmətkeşlərinin təzyiqi ilə ləğv olundu. «Sadval»çıların separatçı hərəkətlərinin qarşısı alındı, ayrı-ayrı silahlı qruplaşmalar ləğv edildi. 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasındaı müharibə dayandırıldı, atəşkəs əldə olundu. Beləliklə ölkədə əmin-amanlıq, siyasi sabitlik bərqərar oldu ki, bu da Azərbaycanın dinc quruculuq işlərinə başlaması üçün zəmin yaratdı.

Həmin dövrdə ən mühüm vəzifələrdən biri müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasının hazırlanması idi. Bu məqsədlə Milli Məclisin 1995-ci il 3 iyun ta-

rixli qərarı ilə Prezident Heydər Əliyevin sədrliyi ilə Konstitusiyanın hazırlanması üçün 35 nəfərdən ibarət komissiya yaradıldı. Professor Səfyar Musayev də komissiyanın tərkibinə daxil edilmişdi[10]. O. peşəkar tarixçi kimi üzərinə düşən məsuliyyəti dərindən dərk edərək, illərlə topladığı bilik və bacarığını bu işə sərf etmişdi. Yeni konstitusiya layihəsi H.Əliyevin rəhbərliyi altında 8 dəfə konstitusiya komissiyasının iclaslarında müzakirə olunduqdan sonra xalqın müzakirəsinə verilmişdi. Nəhayət Azərbaycan Respubldikasının konstitusiyası 1995-ci il 12 noyabr tarixində referendium yolu ilə qəbul olunmuşdu.

Məlum olduğu kimi S.Musayev 1995-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilərdə 74 saylı Goranboy-Naftalan seçki dairəsindən Milli Məclisə deputat seçilmişdi.

Azərbaycanın yeni Konstitusiyasının qəbul edilməsi ilə əlaqədar respublikanın dövlət quruculuğunda, o cümlədən qanunvericilik orqanının quruluşunda da bir sıra mühüm dəyişikliklər baş vermişdi. Belə ki, yeni konstitusiyanın tələbinə uyğun olaraq Milli Məclisdə keçmiş «insan hüquqları və millətlərarası münasibətlər» daimi komissiyasının əvəzinə 1996-cı ildə yeni «İnsan hüquqları daimi komissiyası» yaradıldı. Professor Səfyar Musayev bu komissiyanın sədri seçilir. Komissiyanın tərkibinə səriştəli, böyük həyat təcrübəsinə malik olan millət vəkilləri seçilmişdi. Komissiya üzvləri arasında onların ixtisasına yuğun iş bölgüsü aparılmaqla yanaşı, komissiyanın işini daha da yaxşılaşdırmaq məqsədi ilə onun nəzdində ictimai əsaslarla iki nəfər politoloq, iki nəfər hüquqşünas və bir nəfər iqtisadçıdan ibarət ekspertlər qrupu təşkil olunmuşdu.

S.Musayevin başçılığı ilə bu komissiya beynəlxalq normalara uyğun onlarla qanun layihəsi işləyib hazırlayaraq Milli Məclisin müzakirəsinə təqdim etmişdi. Onlardan «Fərdi əmək mübahisələri haqqında», «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında», «Siyasi respessiya qurbanlarına bəraət verilməsi haqqında» və s. göstərmək olar. «Fərdi əmək mübahisələri haqqında» qanun layihəsi Milli Məclisdə geniş müzakirə olunaraq qəbul olunmuşdu. 1996-cı il martın 15-də Milli Məclisdə çıxış edən Səfyar Musayev «İnsan hüquqları daimi komissiyası»nın hazırladığı «Siyasi repressiya qurbanldarına bəraət verilməsi haqqında» qanun layihəsinin mahiyyətini açıqlayaraq bildirmişdi ki. 1920-ci il aprelin 28-dən başlayaraq Azərbaycan Respublikası ərazisində demokratiyaya zidd qanunlar əsasında totalitar dövlət rejiminin törətdiyi özbaşınalıq, zorakılıq nəticəsində yüz minlərlə qünahsız insan öz siyasi əqidəsinə, fəaliyyətinə, başqa cür düşyndüyünə görə repressiyalara məruz qalmışdır. Bu qanunun məqsədi isə Azərbaycan Respublikası ərazisində törədilmiş siyasi repnessiyaların qurbanlarına bəraət verilməsi, onların siyasi, sosial və vətəndaşlıq hüquqlarının bərpa edilməsi, maddi-mənəvi itkilərin əvəzinin ödənilməsi, həmçinin özbaşınalığın başqa nəticələrinin aradan qaldırılması üçün həqiqi zəmin yaratmaqdan ibarətdir[11].

Səfyar müəllimin məzmunlu çıxışından sonra qanun layihəsi müzakirə və təkliflərdən sonra qəbul olunmuşdu.

Ümumiyyətlə S.Musayevin rəhbərlik etdiyi «İnsan hüquqları daimi komissiyası» 1 yanvar 1996-cı il tarixindən 10 aprel 1998-ci il tarixinə kimi 30-dan çox iclas keçirilmiş və 15-ə yaxın qanun layihəsi işləyib hazırlayaraq Milli Məclisə təqdim etmişdir. Bunlardan səkkizi Milli Məclis tərəfindən müzakirə olunaraq qəbul edilmişdir.

Qeyd etmək lazımdır ki, «İnsan hüquqları daimi komissiyası» yalnız qanun layihəsi hazırlamaqla məşğul olmamış, həm də hüquqları pozulmuş vətəndaşların şikayət və ərizələrinə də baxmışdır. Qayğılara möhtac minlərlə insan əlac tapmaq üçün Səfyar Musayevin sədrlik etdiyi bu komissiyaya müraciət edərək qaneedici cavablar alırdılar. Onun rəhbərliyi dövrundə komissiyaya daxil olan şikayət və ərizələrin sayı durmadan artırdı. 1998-ci ildə Milli Məclisə ünvanlanmış şikayət ərizələrinin 70 faizi məhz bu ko-

missiyaya yönəlmişdi. Əgər 1996-cı ildə komissiyaya cəmi 1288 ərizə, şikayət və müraciət, 1997-ci ildə 1528 ərizə daxil olmuşdursa, 1998-ci ilin 3 ayı ərzində bu rəqəm 1169 olmuşdur. Ümumilikdə 1998-ci ilə kimi komissiyaya 5085 ərizə, şikayət və müraciət daxil olmuşdur. Bu müddətdə 3296 vətəndaş qəbul olunub dinlənilmişdi[12]. Göründüyü kimi S.Musayevin rəhbərlik etdiyii «İnsan hüquqları daimi komissiyası insan taleyinə diqqətlə yanaşmış, gücləri müqabilində onların hüquqlarının bərpasına çalışmışlar.

Dərin biliyi, düzgün siyasəti, analitik mühakiməsi, qayğıkeşliyi, işgüzarlığı və həssaslığı ilə seçilənn S.Musayev ictimai-siyasi fəaliyyəti ilə Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasında da diqqətdən yayınmamışdı Bütün göstərilən keyfiyyətlərə görə o, Assambleyanın «Sosial siyasət və insan hüquqları daimi komissiyası»nın sədri seçilmişdi. Komissiyanın işi ilə əlaqədar olaraq ayda iki dəfə Sankt-Peterburqa gedir onun fəaliyyətinə rəhbərlik edirdi. Səfyar Musayev bu vəzifəsində də həmişə respublikamızın, xalqımızın mənafeyini müdafiə etmişdir. Bunun üçün maraqlı bir faktı yada salmaq kifayətdir: Belə ki, 1996-cı il oktyabrın sonu, noyabrın əvvəllərində Sankt-Peterburqda MDB PA-nın sessiyasında ermənilər Assambleyanın elm, təhsil, mədəniyyət və informasiya məsələləri komissiyasına MDB-nin elm-təhsil mərkəzinin yaradılmasını təklif edirlər. Əslində bununla onlar Lazerev institutunu bərpa etmək istəyirdilər. MDB PA-nın sosial-siyasət və insan hüquqları komissiyasının sədri S.Musayev bu sessiyada heç bir azərbaycanlı deputatın iştirak etmədiyindən xəbər tutaraq sessiyada iştirak etmək qərarına gəlir. Müzakirəyə təqdim edilmiş qərar layihəsiendən məlum olur ki, keçmiş Lazerev institutu bazasında MDB elmi-tədqiqat mərkəzi yaradılması nəzərdə tutulur. Lazerev institututu XIX əsrdə yaradılmış və bu qurumun əsas amalı türk xalqlarına qarşı böhtanlı tədqiqatlar aparıb onları təbliğ etməkdən ibarət olub. 1996-cı ildə bu İnstitutun binasında Ermənistanın Moskvadakı səfirliyi yerləşirdi. Ermənilər MDB-nin elmi-tədqiqat mərkəzi adı altında bu institututun bərpasını istəyirdilər. Sessiyada çıxış edən S.Musayev bildirmişdi ki, MDB-nin elmi-tədqiqat mərkəzinin yaradılması faydalı ola bilər, lakin onun Lazerev İnstitutunun bazasında yaradılmasına yol vermək olmaz. Çünki belə halda burada ermənilər hakim mövqe tutacaqlar və Aərbaycan xalqına, türk dünyasına qarşı səlib yürüşlərini davam etdirəcəklər. Əgər bu təxribatçı təklif keçərsə, Dağlıq Qarabağ müqnaqişəsinin yenidən alavlanmasına təkan verə bilər. Onun çıxışı dəstək qazanmış və məsələ müzakirədən çıxarılmışdı[13].

Ümumiyyətlə S.Musayev bütün həyatı boyu xalqımızın, dövlətimizin xoş gələcəyi naminə heç nədən çəkinmədən ardıcıl mübarizə aparmış, öz mövqeyindən dönməmişdir. O, həm də çox ləyaqətli, təmiz, saf, xırda hisslərldən uzaq və həmişə ehtiyacı olanlara arxa duran bir ziyalı, alim, ictimai xadim idi.

Səfyar müllim, 1995-ci il yanvarın 17-də anadan olmasının 60-cı ildönümü münasibətilə ümummilli liderimiz Heydər Əliyevin evlərinə zəng edib onu təbrik etməsini həmişə iftixarla qeyd edirdi.

Qəlbi yaşayıb-yaratmq eşqi ilə döyünən bu görkəmli şəxsiyyət 1999-cu il yanvarn 6-da ömrünün 64-cü ilində dünyasını dəyişdi. Onunla vidalaşma mərasimi doğma universitetində oldu. Dəfn mərasimində prezident Heydər Əliyev də iştirak etmişdi. Öz görkəmli oğlu ilə vidalaşmaq üçün respublikamızın bütün bölgələrindən böyük insan axını gəlmişdi. Dəfn mərasimi Birinci Fəxri Xiyabanda keçirilmişdi.

Səfyar Musayev az yaşasa da əsl insan ömrü, ziyalı ömrü, xeyirxahlıq, mərdlik, kişilik ömrü yaşadı. İnanırıq ki, illər, əsrlər ötsə də Səfyar Musayevin qoyduğu xeyirxahlıq izləri qədirbilən xalqımızın qəlbinə əbədi həkk olunacaqdır.

---

[1] Heydər Əliyev. Müstəqiollik yolu. Seçilmiş fikirlər. Bakı, 1997, s.61.
[2] Səfyar Musayev. Ömür karvanı. Bakı, 2000,s.129.

[3] Məmmədov R.İnamla yaşayan şərəfli ömür. «Xalq qəzeti» 1999, 14 fevral.
[4] Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər.Bakı, 1997, s.126.
[5] Səfyar Musayev.Ömür karvanı. Bakı.2000, s.150.
[6] S.Musayev. Mən niyə Əliyevçiyəm. «Səs» qəzeti.1992, 16 oktyabr.
[7] Quliyev S.Şərəfli ömür yolu «Azərbaycan» qəzeti, 2005, 17 iyun.
[8] Yenə orada.
[9] Səfyar Musayev. Azərbaycanımızı düşünürük. «Azərbaycan» qəzeti, 1993, 21 oktyabr.
[10] Yeni Konstitusiya liyihəsini hazırlayan komissianın tərkibi haqqında. «Azərbaycan» qəzeti, 1995, 3 iyun.
[11] Milli Məclisin iclasında siyasi repressiya qurbanlarına bəraət verilməsi haqqında qanun qəbul edildi. «Azərbaycan» qəzeti 1996, 16 mart
[12] Səfyar Musayev. Ömür karvanı. Bakı, 2000, s.297.
[13] Yenə orada, s.210-211.